## ***HƏYAT VƏ YARADICILIĞI***

Vahid Əziz 1945-ci il noyabrın 23-də Ermənistanın Dərələyəz mahalının Əzizbəyov rayonunun Əzizbəyov kəndində qulluqçu ailəsində anadan olmuşdur. Azərbaycanın Tərtər rayonuna köçdüklərindən orta məktəbi orada bitirmişdir (1963). Əmək fəaliyyətinə Əli Bayramlı şəhərində Şirvanneft trestində başlamışdır (1963–1964).

Azərbaycan Politexnik İnstitutunu bitirmişdir (1971). "Xəbər Mətbuat Agentliyi"ndə müxbir (1971–1976), Bakı şəhər Partiya Komitəsində təbliğat və təşviqat şöbəsində təlimatçı (1976–1982), Azərbaycan KP Mərkəzi Komitəsində təlimatçı, mətbuat bölməsinin müdiri (1982–1989), Azərbaycan Dövlət Mətbuat Komitəsində sədr müavini (1989–1991) vəzifələrində çalışmışdır.

Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin katibi olmuşdur (1991–1997). Bakı şəhər İcra hakimiyyətinin Reklam və Şəhər tərtibatı Departamentində "Reklamların Azərbaycan dilində yazılışına nəzarət bölməsi"nin müdiri, Dağlıq Qarabağ üzrə respublika təşkilat komitəsinin üzvü (1989) olmuşdur. İnqilabdan əvvəl görkəmli rus ədiblərinin erməni - Azərbaycan münasibətlərinə dair yazdıqları əsərlərin yenidən nəşrini bilavasitə təşkil etmişdir.

"Oğuz eli" ədəbi-publisistik qəzetinin işıq üzü görməsinə köməklik göstərmiş, Bakıda keçirilən Beynəlxalq-biznes konqresinin təşkilat komitəsi qərargahının rəisi (1991) olmuşdur. "Ergün" firmasını, eyniadlı nəşriyyatı təsis etmişdir. Burada bazar iqtisadiyyatı ilə sıx bağlı olan sorğu, lüğət kitablarını, müasir Avropa və Amerika iqtisadçılarının əsərlərini kütləvi tirajla nəşr etdirmişdir.

Bədii yaradıcılığa 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çıxan ilk şeirindən sonra başlamışdır. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. Son illər 200-dən çox publisistik məqaləsi və müsahibəsi dərc olunmuşdur. Yeni şeirlərlə vaxtaşırı çıxış etmişdir. Sözlərinə bəstələnmiş mahnıların diski buraxılmışdır. "Dözmək olmur" (1997) şeirlər kitabı rəğbətlə qarşılanmışdır. Bədii tərcümə ilə də məşğul olur. 40-dan çox mahnısına musiqi bəstələnmişdir. Azərbaycanın rəsmi nümayəndə heyətinin tərkibində dəfələrlə xarici ölkələrdə olmuşdur.

24 may 2019-cu ildə "Azərbaycan Respublikasının Xalq şairi" fəxri adına layiq görülüb, 2020-ci ildən Prezidentin fərdi təqaüdçüsüdür.

Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvinin 880 illiyi (1141-2021)" xatirə nişanı ilə təltif edilmişdir.

Bu il noyabrın 23-də sevimli Xalq şairi Vahid Əzizin 80 yaşı tamam olur.

Azərbaycan Respublikası Prezidentinin 22 noyabr 2025-ci il tarixli sərəncamı ilə Xalq şairi Vahid Əziz oğlu Cəfərov (Vahid Əziz) Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə “Şərəf” ordeni ilə təltif edilib.

Vahid Əzizi yubileyi və yüksək dövlət təltifi münasibətilə kollektivimiz və çoxsaylı istifadəçilərimiz adından təbrik edir, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq!

## ***ƏSƏRLƏRİ***

1. “Mən küləyi görürəm” (1969)
2. “Aylı pəncərə” (1974)
3. “İllərin baharı” (1980)
4. “Əllərimin kölgəsi” (1985)
5. “Dözmək olmur” (1997)
6. “Şeirlər, poemalar, tərcümələr, publisistika” (4 clddə: C.1, 2) 2005
7. “Seçilmiş əsərlər” (C.3) (2008)
8. “Təkcə sənsən ürəyimdə” (2011)
9. “Səninlə...” (2016)
10. “Param-parça illər...” (2021)
11. “Yaşadım yaşamaq ehtiyacında” (C.1) (2024)
12. “Yaşamağa tələsməyin...” (2025)